**Hələ XIX əsrin sonlarında Gəncədə həvəskarlardan ibarət teatr truppası fəaliyyət göstərirdi. 1895-ci ildə yerli həvəskarlar Mirzə Fətəli Axundzadənin "Hacı Qara" pyesini tamaşaya qoymağa müvəffəq oldular.**



# Mədəniyyətimin beşiyi Gəncə

## Gəncə Dövlət Milli Dram Teatrının yaradıcılıq yoluna nəzər salarkən

1898-ci ildə göstərilən "Müsyö-jordan və Dərviş Məstəli şah" tamaşasında Gəncənin istedadlı gəncləri öz səhnə bacarıqlarını göstərə bilmişlər. 1906-cı ildə Gəncə Müsəlman Dram məclisi adlı 38 nəfərdən ibarət truppa təşkil edilmiş və bu truppaya rəhbərlik isə Ələsgər bəy Xasməmmədova tapşırılmışdır. Truppanın fəallarından Mirzə Məhəmməd Axundzadəni, Məmmədbağır Şıxzamanzadəni, Rüstəm bəy Mirzəzadəni, Talıb bəy Məmmədzadəni və digərlərinin adlarını qeyd etmək olar. Bu illərdə truppa "Nadir şah", "Qan ocağı", "Rusunəli və ballıbadı", "Bəxtsiz cavan" əsərlərini tamaşaya hazırlayaraq Gəncədə nümayiş etdirmişlər. Daha sonra 1909-cu ildə Gəncədəki yerli həvəskarların dram cəmiyyəti, Gəncə sənət məktəbinin əqait və türk dili müəllimi olan Mirzə Məhəmməd Axundzadənin teatr sənətinin dövrü üçün nəzəri problemlərini özündə əks etdirən "Teatro nədir?" əsərini çap etdirmişdir. Qeyd etmək lazımdır ki, 1915-ci ildə Hacı Yusif Həmzəyevin evində qadınlar üçün pulsuz nümayiş etdirilmiş "Döymə qapımı, döyərəm qapını" tamaşası böyük maraq doğurmuşdu. Tamaşadan bir neçə gün sonra şəhər qadın məktəbinin müdiri Xədicə xanım Ağayevanın rəhbərliyi ilə müəllimələrdən ibarət bir truppa yaradılmışdır.

Bütün bunlarla yanaşı, həmçinin qeyd etmək lazımdır ki, 1915-ci ildə



Gəncədə "Qız məktəb"i tələbələrinin ilk dram truppası yaradılıb. Müxtəlif illərdə "Qız məktəb"i tələbələrinin ilk dram truppasına rejissor Əsəd Şıxzamanov rəhbərlik edib. Burada M. C. Əmirovun "Seyfülmüllük" operası ilk dəfə 1916-cı ildə tamaşaya qoyulub. Bu illərdə həmçinin həmkarlar klubu nəzdində dram dərnəyi fəaliyyət göstərib. Bu dərnək istedadlı aktyor truppası ilə yanaşı, rəngarəng repertuarı olan, lakin dövlət statusu almayan bir teatr hesab edilirdi. Həmkarlar klubu nəzdində dram dərnəyi kimi fəaliyyət göstərən bu truppada görkəmli rejissor Ədil İsgəndərov, tanınmış sənətkarlardan Barat Şəkinskaya, rejissor və aktyor Mir İbrahim Həmzəyev və başqaları fəaliyyət göstərib. Məhz bu truppada fəaliyyət göstərən yaradıcı kollektivin bir sıra aktyorları sonradan respublikanın digər teatrlarında uğurlu yaradıcılıq fəaliyyəti ilə tanınmağa başlayıblar.

1916-cı ildə Gəncədə Məşədi Cəmil Əmirovun "Seyidəmir" operası da böyük uğurla nümayiş olunub. Hətta Azərbaycanda sovet hakimiyyəti qurulduğu illərdə Gəncədə bir neçə dram dərnəyi eləcə də həvəskarlardan ibarət truppalar fəaliyyət göstərib. "Nadir şah", "Müsibəti Fəxrəddin", "Pəri Cadu", "Arşın mal alan", "Evli ikən subay", "50 yaşında cavan" operettalarını və başqa əsərlərin müvəffəqiyyətlə tamaşaya hazırlanması dram dərnəkləri və teatr truppalaranın əməli fəliyyətlərinin nəticəsi idi.

1932-ci ilin dekabr ayının 15-dən Gəncədə fəaliyyət göstərən teatrın tarixi XX əsrin əvvəllərində Bakıda yaradılan, Azərbaycan Xalq Maarif Komissarları Sovetinin 18 may 1920-ci il əmri ilə ayrı-ayrı truppalarda fəaliyyət göstərən aktyorlar vahid kollektiv şəklində müəyyən edilərək bir təşkilatda birləşdirilməklə Dövlət statusu almış və 1921-ci ilin noyabr ayının 13-də görkəmli aktyor Hacıağa Abbasovun təşəbbüsü və rəhbərliyi ilə "Tənqid-Təbliğ Teatrı" olaraq öz pərdələrini S. S. Axundovun "Cərxi fələk" adlı pyesi ilə ilk uğurlu addımını ataraq fəaliyyətə başlamışdır. Daha sonra 1925-ci ildən 1927-ci ilədək fəaliyyət göstərən "Bakı Türk İşçi və Kəndli Teatrı"nın tarixi ilə üzvü şəkildə bağlı olan sənət məbədi Azərbaycan SSR Mərkəzi İcrayə Komitəsi Rəyasət Heyətinin 26 may 1931-ci il tarixli qərarı ilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunub. Teatr 1927-ci ildən 1932-ci ilədək isə "Bakı Türk İşçi Teatrı" kimi fəaliyyətini davam etdirib. Məhz 1932-ci ilin dekabr ayının 15-dən teatrın yaradıcı kollektivi bütünlükdə Azərbaycan Kominist Partiyasının Mərkəzi Komitəsi eləcə də Xalq Komissarları Sovetinin qərarı ilə Gəncəyə köçürülüb və "Tənqid-Təbliğ" teatrı kimi fəaliyyətini burada davam etdirib. Bu illərdə Gəncəyə köçən teatrın yaradıcı heyətinə Abbas Mirzə Şərifzadə, Ağasadıq Gəraybəyli, Fatma Qədri, İsmayıl Talıblı, Əhməd Salahlı, Atamoğlan Rzayev, İsmayıl Əfəndiyev kimi sənətkarlar daxil idilər.

Teatrın tarixinə nəzər saldıqda bu teatrın yetirməsi olan görkəmli pedaqoq və rejissor, SSRİ xalq artisti Mehdi Məmmədovun dəyərli fi-



kirləri yada düşür: "Teatrın yaradıcılıq yoluna nəzər salanda iftixar hissi duyursan. Teatr daima müasirlik ruhu ilə yaşayıb, hər zaman müasir fikirlər irəli sürməyə can atıb".

Gəncə Dövlət Milli Dram Teatrının şərəfli tarixinə qısaca olaraq nəzər salarkən burada ömrünü sənətə fəda edən Respublikanın Əməkdar İncəsənət xadimləri olan, rejissorlar Yusif Bağırovu, Həsən Ağayevi, Bəhram Əfəndiyevi, Hüseyn Sultanovu, rejissor Nəsir Sadıqzadəni, Yusif Yıldızı, xalq artistləri İsmayıl Talıblını, Mehdi Məmmədovu, Barat Şəkinskayanı, Ələkbər Seyfini, Muxtar Avşarovu, Məmmədrza Şeyxzamanovu, Ələddin Abbasovu, Məhəmməd Burcəliyevi, Sədayə Mustafayevanı, Əşrəf Yusifzadəni, Rəmziyyə Veysəlovanı, Zülfüqar Baratzadəni, Vaqif Şərifovu, əməkdar artistlər Əhməd Salahlını, Reyhan Tağıyevanı, Sadıq Həsənzadəni, Səməd Tağızadəni, Əli Rzayevi, Ağa Məmmədovu, Rza Nadirovu, Məmməd Cəfərovu, Kərim Sultanovu, Firuzə Bədirbəylini, Mənsurə Cəfərovanı, Ətayə Əliyevanı, Yusif Qazıyevi, Qurban Abbasovu, Simuzər Namazovanı, Vaqif Məmmədovu, Əli Allahverdiyevi, Faiq Qasımovu və digərlərinin böyük sənət fədailəri olaraq səhnə fəaliyyətini xatırlamamaq mümkün deyil. Məhz bu sənət fədailəri Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində maraqlı və bitgin obrazlar qalereyası yaradaraq teatrsevərlərin hər zaman diqqət mərkəzində olmağı bacarıblar.

Piter Abrahamsın eyni adlı romanı əsasında Karl Myufkenin "İldırımlı yollarla", Səttar Axundovun "Dağlarda", Səməd Vurğunun "Fərhad və Şirin", Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", İlyas Əfəndiyevin "Atayevlər ailəsi", "Unuda bilmirəm", "Mənim günahım", Məmmədhüseyn Təhmasibin "Çiçəkli dağ", Şıxəli Qurbanovun "Sənsiz", Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" poeması əsasında Məmmədəli Nəsirovun "Tariyel", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Cəfər Cabbarlının "Almaz", "Oqtay Eloğlu", "1905-ci ildə" və "Solğun çiçəklər", Altay Məmmədovun "Ulduzlar görüşəndə", "Həmyerlilər", "Bəraət", Aleksandr Ostrovskinin "Quduz pullar", Uilyam Şekspirin "Otello", "III-Ricard", Yusif Əzimzadənin "Unutmayın", "Aprel səhəri" və "Anacan", Qurban Musayevin "Buhenvald harayı" və "Odlu illər", Sabit Rəhmanın "Küləklər", "Əliqulu evlənir", Mixail Lermontovun "İki qardaş", R. Radzinskinin "Sokratla söhbətlər", İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə", Mustay Kərimin "Odu atma, Prometey!", Əlibala Hacızadənin "İtkin gəlin", Maqsud İbrahimbəyovun "Cavan qadına yaraşan kişi", Orxan Kamalın "72-ci kamera", "Yad qızı", Dias Valeyevin "Vicdan məhkəməsi", Aleksey Dudarevin "Astana", Kiril Topalovun "Məhəbbət və xəyanət", Vladimir Kotenkonun "Dəmir pərdə", Nazim Hikmətin "Kəllə", Əli Səmədovun "Ölüm hökmü", Ənvər Məmmədxanlının "Şərqin səhəri", İmran Qasımovun "Dairəni genişləndirin", M. Şatrovun "İnqilabi etüd", Elçinin "Ölüm hökmü", "Qatil", Xəzangülün



"Məhəbbətin qənimi", "Xərabət gözəli", N. V. Qoqolun "Evlənmə", F. Əlyarbəylinin "Xan qızı", "Qonşular", N. Məmmədlinin "Cavad xan", "Unutmaq istəyirəm", İ. Şıxlının "Dəli Kür" romanı əsasında Mailə Muradxanlının səhnələşdirdiyi "Dəli Kür", C. Məmmədquluzadənin "Ölülər", "Dəli yığıncağı", S. [illegible]vişin "Fosforlu Cevriyyə", Ş. M[illegible]iyevin "Mirzə Fətəli", "Sabir", [illegible]ucenoğlunun "Gözəlçələr", "Matruşka", H. Cavidin "Ana", E. İoneskonun "Kral ölür", Saqarelinin "Xanuma", Ə. Nesinin "Toros canavarı" və başqa maraqlı səhnə həyatı bəxş olunan quruluşları Gəncə Dövlət Milli Dram Teatrının repertuarının əsasını təşkil edir.

Tarixi faktlara nəzər salarkən qeyd etmək lazımdır ki, 12 dekabr 1956-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə teatra böyük ədib Cəfər Cabbarlının adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 aprel 1991-ci il tarixli 105 saylı qərarı ilə isə teatrın sonuncu dəfə 70 illik yubileyinin keçirilməsi nəzərdə tutulub.

Təsadüfi deyil ki, Azərbaycan teatrında ilk dəfə olaraq məhz Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində Qədim Yunan dramaturgiyasına müraciət edən rejissor da məhz 33 il teatrın baş rejissoru kimi fəaliyyət göstərən, mərhum Respublikanın Əməkdar İncəsənət xadimi Yusif Bağırov olub. O, Evripidin "Medeya" və Sofoklun "Antiqona" faciələrini ilk dəfə olaraq məhz bu teatrın səhnəsində uğurla tamaşaya hazırlayıb. Azərbaycan səhnəsində ilk dəfə olaraq Yunan dramaturgiyasına müraciət və ilk tamaşanın tarixi Evripidin "Medeya" faciəsi ilə Gəncə Dövlət Milli Dram Teatrında 12 dekabr 1969-cu ilə təsadüf edir. Rejissor Yusif Bağırov bir neçə il sonra isə 1976-cı il dekabr ayının 11-də Sofoklun "Antiqona" faciəsinə müraciət edib. Bu quruluş da o illərdə teatr ictimaiyyəti tərəfindən böyük əks-səda ilə qarşılanıb.

***(Ardı var)***